







# Heydər Əliyevin xatirəsi Bursada böyük məhəbbətlə yad edilir

**Müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi yalnız ölkəmizdə deyil, xaricdə də hər zaman anılır. Ulu öndərin anadan olmasının 95-ci ildönümü ilə bağlı bu günlərdə Türkiyənin Bursa şəhərində Abşeron Rayon İcra Hakimiyyətinin və yerli hakimiyyət orqanlarının birgə təşkilatçılığı ilə keçirilən tədbirlər göstərir ki, qardaş ölkənin də ictimaiyyəti ümummilli lider Heydər Əliyevi ehtiramla yad edir.**

Abşeron rayonu ilə Bursa şəhəri 2008-ci ilin iyun ayında qardaşlaşıblar. Ötən 10 ildə Azərbaycan və Türkiyənin bu iki bölgəsi arasında əlaqələr yüksələn xətlə inkişaf edib. Ayrı-ayrı illərdə qarşılıqlı səfərlər regionlararası əməkdaşlığa böyük töhfələr verib. Bursa şəhərinin "Qapalı Qaya" massivində, Uludağın ətəyində salınan Heydər Əliyev parkı yerli sakinlərin, eləcə də şəhərin qonaqlarının ən sevimli istirahət mərkəzlərindən biridir. İldən-ilə genişlənən parkın mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi ucaldılıb. Bu abidənin qoyulması Türkiyədə Heydər Əliyevin xatirəsinə göstərilən ehtiramın və sonsuz sevginin təzahürüdür. Park Türkiyədə Azərbaycan dəyərlərini uca tutan doğma bir ocaq kimi bursalılar tərəfindən əzizlənir, məhəbbətlə qorunur. Bura sanki Azərbaycanın bir parçasıdır. Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümləri ilə bağlı tədbirlərin bu parkda keçirilməsi isə son illərin xoş ənənəsinə çevrilib.

Ulu öndərin anadan olmasının 95-ci ildönümü ilə bağlı tədbirlərdə iştirak etmək üçün Abşeron RİH başçısı İradə Gülməmmədovanın başçılığı ilə rayon nümayəndə heyəti Türkiyədə səfərdə olub. Bursadakı Heydər Əliyev parkında təşkil olunan tədbirə Azərbaycan nümayəndə heyətinin üzvləri ilə yanaşı Bursanın Yıldırım bələdiyyəsinin sədri İsmayıl Hakkı Edabali, Türkiyə Böyük Millət Məclisinin deputatı Hüseyin Şahin, Bursa valisinin köməkçisi Yunus Fatih Kadiroğlu, Yıldırım ilçə kaymakamı Mehmet Aydın, AK Partiyası Yıldırım təşkilatının sədri Oktay Yılmaz, Qars Ərdəhan İğdır Dərnəklər rəhbəri Savaş Qurban və şəhər sakinləri qatılıblar.






Əvvəlcə Abşeron rayon nümayəndə heyəti və Bursa hakimiyyət orqanlarının rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri, ziyalılar Uludağın ətəyində yerləşən Heydər Əliyev parkını ziyarət edərək, ulu öndərin abidəsi önünə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər. Daha sonra Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən İradə Gülməmmədova Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin gücləndirilməsi, dövlət quruculuğu sahəsindəki, eləcə də qardaş Türkiyə ilə münasibətlərin inkişafındakı misilsiz xidmətlərindən danışıb. Abşeron RİH başçısı ulu öndərin "Bir millət, iki dövlət" ifadəsini və Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" fikirlərini xatırladaraq Türkiyə-Azərbaycan münasibətlərinin tarixi köklərindən bəhs edib. Bildirib ki, ulu öndər dərin tarixi köklərə malik türkdilli dövlətlər və xalqlar arasında sıx əlaqələrin qurulmasına və inkişafına hər zaman dəstək göstərib, o cümlədən dahi şəxsiyyətin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edib. İradə Gülməmmədova qeyd edib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev həyata keçirdiyi siyasi xətlə Heydər Əliyev yolunu layiqincə davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı, həmçinin Türkiyə ilə daha da dərinləşən münasibətlər göstərir ki, ulu öndər Heydər Əliyevin ideyaları uğurla reallaşır: "Heydər Əliyevin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan-Türkiyə münasibətləri gündən-günə inkişaf edir və iki qardaş ölkə tarixi layihələrə imza atır".

Bursanın Yıldırım bələdiyyə sədri İsmayıl Hakkı Edabali çıxışında müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə belə bir tədbirin təşkil olunmasından məmnunluğunu ifadə edib. İsmayıl Hakkı Edabali türk dünyasının böyük oğlu Heydər Əliyevin iki ölkə arasında münasibətlərin inkişafındakı xidmətlərini vurğulayaraq bundan xalqlarımızın yararlandığını deyib. Bildirib ki, Heydər Əliyevə Bursada ucaldılan abidə Türkiyənin XX əsrin türk dünyasının ən güclü siyasi xadiminin xatirəsinə göstərdiyi ehtiramın və sonsuz sevginin təzahürüdür.

Türkiyə Böyük Millət Məclisinin deputatı Hüseyin Şahin isə türk millətinin şanlı tarixinin hər dövründə böyük liderlər yetişdirdiyini söyləyib: "Bu liderlərdən biri də Heydər Əliyevdir. Onun Azərbaycanda hakimiyyətə gəlişindən sonra qardaş ölkədə çiçəklənmə dövrü başladı. Yaratdığı yeni dövlət quruculuğu ilə bərabər Azərbaycanın bölgədə inkişaf və tərəqqisini, sabitliyini təmin etdi. Türk milləti tarixinin ən çətin günlərində belə qəhrəmanlar, dövlət xadimləri və siyasətçilər yetişdirir. Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu kimi mühüm tarixi rol oynayıb".

Ulu öndər Heydər Əliyevə həsr olunmuş 95 illik yubiley tədbirindən məmnunluğu dilə gətirən Bursanın Yıldırım kaymakamı Mehmet Aydın qeyd edib ki, Bursa və Abşeron həm sosial, həm də mədəni baxımdan bir-birinə bənzəyən iki qardaş şəhərdir: "Yıldırım bələdiyyəsi ilə imzalanmış qardaşlıq protokolu bizim keçmişdən bəri var olan qardaşlıq münasibətlərimizi daha da artırır. "Qapalı Qaya" massivində salınan Heydər Əliyev parkı da qardaşlığımızın Bursadakı bariz nümunəsidir. Bu mənada "Bir millət, iki dövlət" deyərək Azərbaycan ilə qardaş olduğumuzu bir daha nümayiş etdirmiş olduq".

Çıxış edənlər türk dünyasının böyük siyasi xadimi Heydər Əliyevin həyat yolundan danışdılar, Bursa-Abşeron və Türkiyə-Azərbaycan qardaşlığının əbədiliyini bir daha təsdiqlədilər. Tədbirə geniş konsert proqramı ilə yekun vuruldu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***